UOT:

*Rifat Vaqif oğlu HƏSƏNOV*
*Naxçıvan Universitetinin doktorantı*
*10.30546/1.72.2024.26*

# REGİONAL TARAZLIĞIN TƏMİN EDİLMƏSİ YÖNÜNDƏ XARİCİ TƏCRÜBƏNİN ÖYRƏNİLMƏSİ

*Xülasə*

**Tədqiqatın məqsədi** – yeni iqtisadi və sürətli dəyişikliklər şəraitində, regional tarazlığın təmin edilməsi yönündə xarici təcrübənin öyrənilməsi və qabaqcıl xarici təcrübə nəzərə alınmaqla regional tarazlı inkişafın təmin edilməsinin təkmilləşdirilməsi yönündə elmi əsaslandırılmış təkliflərin hazırlanmasından ibarətdir.

**Tədqiqatın metodologiyası** – Tədqiqat işində təhlil, sintez və ümumiləşdirmə kimi iqtisadi metodlardan istifadə edilmişdir.

**Tədqiqatın tətbiqi əhəmiyyəti** – onun nəticələrinin öz əksini regional tarazlığın təmin olunması sisteminin formalaşdırılması sahəsində konkret olaraq irəli sürülən təklif və tövsiyələrdə tapmasından ibarətdir ki, bu da regional tarazlı inkişafın təmin olunması səmərəliliyinin artmasına kömək edə bilər.

**Tədqiqatın nəticələri** – ali təhsil müəssisələrində regional iqtisadiyyatın idarə edilməsi və regional tarazlı inkişafın təmin olunması sahəsində mütəxəssislərin hazırlanması, həmçinin Azərbaycan Respublikasının yerli özünüidarəetmə orqanları tərəfindən regionun davamlı sosial-iqtisadi inkişaf strategiyasının hazırlanması zamanı istifadə oluna bilər.

**Tədqiqatın orijinallığı və elmi yeniliyi** – Xarici təcrübənin təhlili əsasında regional tarazlığın təmin olunmasının forma və metodları, alətləri təhlil olunaraq qruplaşdırılmış, regional iqtisadi məkanın formalaşdırılmasının əsas prinsipləri müəyyənləşdirilmiş, regional inkişafın planlaşdırılmasının özünəməxsus texnologiyaları araşdırılmış, regional idarəetmə orqanlarının iqtisadi inkişafın gedişinə təsirini əks etdirən mümkün metodlar müəyyənləşdirilmişdir.

***Açar sözlər: regional tarazlı inkişaf, regionlararası inkişaf, regional sənaye kompleksləri, regional inkişafın maliyyə təminatı.***

## *Giriş*

Müasir şəraitdə tədqiqatçıların sosial-iqtisadi sistemlərin altsistemi kimi regionların tarazlaşdırılmış inkişafının, başqa sözlə desək, regional tarazlığın təmin edilməsi problemlərinə marağı getdikcə artmaqdadır. Belə ki, hal-hazırda dünya təsərrüfat əlaqələrinin müstəqil iştirakçısı kimi hər bir dövlətin, o cümlədən Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafı onun regionlarının tarazlı inkişafından asılıdır. Məhz bu baxımdan açıq iqtisadiyyat şəraitində iqtisadi sistemin başlıca elementi olan dövlətin iqtisadi təhlükəsizliyinin təmin edilməsi zərurətindən çıxaraq regionların tarazlaşdırılmış inkişafı probleminə xüsusi diqqət yetirilməlidir.

Müasir qloballaşma prosesləri, ölkələr arasındakı rəqabətin artması regional inkişafda fərqlərin və disproporsiyaların güclənməsinə səbəb olur. Ərazilərin insan, təbii və iqtisadi resurslarının müxtəlifliyi əhalinin iqtisadi və sosial bərabərsizliyinin daha da güclənməsinə səbəb olur. Aparılan araşdırmalar sosial-iqtisadi inkişafın müxtəlif ölkələr arasında olduğu kimi hər hansı bir ölkədaxili, regionlar arasında da fərqli sürətlə reallaşdığını göstərir.

Yuxarıda qeyd olunanlardan belə bir nəticəyə gəlmək olar ki, bu gün Azərbaycanda müşahidə olunan mərkəzi və digər regionlar arasındakı sosial-iqtisadi fərqlilik yalnız ölkəmizə xas problem deyildir. Məhz bu nöqteyi-nəzərdən regionlararası inkişaf fərqliliklərinin ortaya çıxma səbəblərini və regional tarazlığın təmin edilməsi problemini araşdırmağa ehtiyac vardır.

Təsadüfi deyildir ki, Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin “Azərbaycanın hərtərəfli yüksəlişi elə olmalıdır ki, təkcə ölkəmizin paytaxtı yox, bütün rayon və regionları inkişaf

etməlidir” sözləri hazırda respublikamızda regionların tarazlı inkişafının təmin olunması sahəsində görülən işlərin mahiyyətini açıqlayır [1]. Azərbaycan Respublikası Prezidentinin rəhbərliyi ilə son illərdə həyata keçirilən iqtisadi siyasət regionların kompleks və tarazlı inkişafına, ölkə üzrə makroiqtisadi gostəricilərdə regionların xüsusi çəkisinin yuksəlməsinə, onların infrastruktur təminatının yaxşılaşmasına, kommunal xidmətlərin səviyyəsinin yüksəlməsinə, yeni istehsal və emal müəssisələrinin, sosial-mədəni obyektlərin yaradılmasına, investisiya qoyuluşlarının və məşğulluğun artmasına, yerlərdə sahibkarlığın inkişafının daha da surətləndirilməsinə, yeni iş yerlərinin açılmasına, nəticə etibarilə yoxsulluğun azaldılmasına və əhalinin həyat səviyyəsinin daha da yüksəlməsinə səbəb olmuşdur. Bu sahədə qarşıda duran vəzifələri ölkə Prezidentinin sözləri ilə aşağıdakı kimi ifadə etmək olar: “Bizim məqsədimiz və amalımız – Azərbaycanda sosial-iqtisadi problemləri tezliklə həll etmək, ölkəmizin bölgələrdəki mövqelərini daha da möhkəmləndirməkdir. Bu isə respublikamızda regionların tarazlı inkişafının təmin olunması problemlərinin öyrənilməsini çox vacib və əhəmiyyətli vəzifə kimi qarşımıza qoymuşdur” [2].

**Regional tarazlığın təmin edilməsi yönündə beynəlxalq təcrübə**

Regional tarazlığın təmin edilməsi, o cümlədən bu prosesə təsir edən amillərin mənfi nəticələrinin aradan qaldırılması, müvafiq proseslərin daha optimal yollarının müəyyənləşdirilməsi məqsədilə uyğun istiqamətdəki mövcud beynəlxalq təcrübələrin öyrənilməsi, öyrənilmiş təcrübələr əsasında ölkəmizin spesifik xüsusiyyətlərinə uyğun regional inkişaf siyasətinin formalaşdırılması zəruridir. Məhz bu baxımdan regional tarazlığın təmin edilməsi istiqamətində aparıcı ölkələrin təcrübələrinin öyrənilməsi və ya tədqiqi gərəklidir. Regional tarazlığın təmin edilməsinin beynəlxalq təcrübəsinə nəzər yetirdikdə, başlıca məqsədlərin aşağıdakılardan ibarət olduğu görünür:

1) iqtisadi fəaliyyət növlərinin regionlar üzrə paylanmasına müdaxilə etməklə onun yalnız bazar iştirakçılarının öhdəsinə buraxılmaması;

2) investisiya qoyuluşlarında ölkə mənafelərinin üstünlük təşkil etməsi;

3) sosial-iqtisadi inkişaf sahəsində regionlararası fərqlərin aradan qaldırılması və bu əsasda ən optimal tarazlığın təmin olunması və s.

Qeyd olunduğu kimi, regional tarazlığın təmin edilməsi üzrə inkişaf etmiş dünya ölkələrinin həyata keçirdiyi siyasətə nəzər yetirilməsi zəruridir. Bu zaman iqtisadi və sosial inkişaf səviyyələri baxımından bir-birindən fərqlənən regionlarda hər hansı siyasətin həyata keçirilməsinə dair elmi müzakirələrin aparılmasından xeyli öncə bu ölkələrdəki regionlararası fərqlərin azaldılması üçün dövlət müdaxiləsinin zəruriliyi vurğulanmalıdır. Xüsusilə İkinci Dünya müharibəsindən sonra həyata keçirilən istər inkişaf planlarında, istərsə də dövlət proqramlarında regional bərabərsizliyi azaltmaq və regional tarazlığı təmin etmək istiqamətində iqtisadiyyata müdaxilə tədbirlərinə yer verilməsi açıq-aşkar görülməkdədir.

Digər tərəfdən, inkişaf etmiş dünya ölkələrində regional tarazlığın təmin edilməsi istiqamətində həyata keçirilən inkişaf fərqliliyini azaldıcı siyasətin başlıca məqsədi, ilk növbədə, nisbətən az inkişaf etmiş regionların inkişafına nail olunmasıdır. Zəif inkişaf etmiş regionların sürətli bir şəkildə iqtisadi irəlilədilməsi sahəsində məqsədlər sırasında bu regionlardan inkişaf etmiş regionlara doğru olan əhali axınının qarşısının alınması, həmçinin inkişaf etmiş regionlarda müşahidə olunan əhali sıxlığı probleminin aradan qaldırılması göstərilə bilər.

Regionlararası fərqlərin azaldılması, regional tarazlığın təmin edilməsi məqsədi ilə dünya dövlətlərinin həyata keçirdikləri siyasət və tədbirlər sırasında bir-birini tamamlayan 3 təməl prinsip – sosial fayda, süni inkişaf qütbü və ictimai iştirak (xalqın qoşulması) prinsipləri dayanmaqdadır [3, 271].

**Regional tarazlığın təmin edilməsində İtaliya təcrübəsi**

Regional tarazlığın təmin edilməsinin İtaliya təcrübəsinin Azərbaycan Respublikası üçün maraqlı cəhəti İtaliyanın cənubunda yerləşən Mezzogiorno bölgəsi ilə Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının bir sıra oxşar cəhətlərinin olmasıdır. Bu oxşarlıq özünü xarici investorların hər iki regiona sərmayə (investisiya) qoymaqda maraqlı olmamalarında, ixtisaslı kadrların çatışmazlığında, gənclərin böyük bir qisminin işsizliklə əlaqədar regionlardan köç etməsində və s. təzahür etdirir. Mezzogiorno bölgəsi ilə Naxçıvan regionunu hər

iki bölgənin uzunmüddətli milli regional siyasət obyektləri olması, mərkəzi hakimiyyətlər tərəfindən göstərilən səylərin hər iki bölgənin mərkəzi regionlarla sosial-iqtisadi inkişaf fərqlərinin aradan qaldırılmasına imkan verməməsi və ziddiyyətli nəticələrin əldə edilməsi, hər iki bölgənin (dotasiya ilə yaşayan) repyudent regionlar olaraq qalması və s. birləşdirir. Məhz bu baxımdan 1990-cı illərə qədər regionlararası fərqliliklər parametrinə görə “Avropa lideri” kimi tanınan İtaliyanın regional tarazlığın təmin edilməsi istiqamətində həyata keçirdiyi siyasətin araşdırılması və buraxılmış səhvlərin təhlil edilməsi, fikrimizcə, respublikamızda perspektiv dövr üçün regional siyasətin uğurla reallaşdırılması baxımından məqsədəuyğundur.

İtaliyanın regional tarazlığın təmin edilməsi istiqamətindəki 70 ildən artıq dövrü əhatə edən regional siyasəti haqqında aşağıdakıları söyləmək olar. 10 avqust 1950-ci ildə İtaliya parlamenti ölkənin şimalı ilə sosial-iqtisadi cəhətdən geri qalmış cənub regionu (Cənubi İtaliya) arasındakı qeyri-tarazlığı aradan qaldırmaq məqsədilə “Cassa per il Mezzogiorno”nun (Mezzogiorno sandığı) qurulmasına qərar verdi. Fəaliyyəti Cənubi İtaliyadakı işsizliklə mübarizəyə, sənayeləşmə prosesinin sürətləndirilməsinə və infrastruktur sahələrinin inkişafına istiqamətlənmiş “Cassa per il Mezzogiorno” İtaliya ərazisinin 40,8%-ni əhatə edən və 1950-ci illərdə əhalisinin 37,4%-nə (17,6 milyon nəfər) sahib olan cənub bölgəsinin sosial-iqtisadi yüksəlişi üçün gərəkli siyasəti müəyyən edib tətbiq etməklə və parlamentə illik fəaliyyəti haqqında məlumat verməklə hökmlü idi [4, 46].

“Cassa per il Mezzogiorno” qurumunun fəaliyyətini tam aydınlığı ilə başa düşmək üçün, fikrimizcə, onun fəaliyyətini dövrlərə ayırmaq məqsədəuyğun olardı. Yeddi bölgəyə bölünən Cənubi İtaliyanın sosial-iqtisadi inkişafı istiqamətində regional siyasət həyata keçirən “Cassa per il Mezzogiorno” qurumunun fəaliyyətini üç dövrə ayırmaq olar.

**I dövr.** 1950-1957-ci illəri əhatə edən ilk səkkizillik dövrdə (sənayeləşmə öncəsi dövrdə) “Cassa per il Mezzogiorno” qurumu Cənubi İtaliyada kənd təsərrüfatının əkinçilik sahəsinin inkişafı üçün lazımi şərtlərin yaradılmasına və infrastruktur təsislərinin formalaşdırılmasına çalışmışdır.

**II dövr.** Növbəti səkkizillik dövrü əhatə edən 1958-1965-ci illərdə qurum tərəfindən sənaye yönümlü inkişafı nəzərdə tutan tədbirlər həyata keçirilməyə başlandı. Bu dövrdə özəl sektor investisiya qoyuluşlarını təşviq etməklə (xüsusi kreditlər, nəqliyyatın tarif qiymətlərinin azaldılması, maliyyə yardımları və s.) birbaşa dövlət müdaxilələri ilə qurum tərəfindən İtaliyanın cənub regionunun müəyyən mərkəzlərində süni inkişaf qütbləri yaradılmağa başlandı. Səkkiz il davam edən bu dövrdə Mezzogiorno bölgəsində 4000 yeni sənaye müəssisəsi yaradıldı.

**III dövr.** Bu dövr 1965-ci ildə İtaliya parlamenti tərəfindən “Cassa per il Mezzogiorno” qurumunun fəaliyyət müddətinin uzadılması ilə başlanmışdır. Sürətli sənayeləşmə dövrü adlandırılan bu dövrdə Mezzogiorno bölgəsinin müəyyən mərkəzlərində başladılan iqtisadi fəaliyyətlərin süni inkişaf qütbü meydana gətirəcək şəkildə inkişaf etdirilməsinə çalışılmışdır. Bu dövrdə, həmçinin müəyyən sayda inkişaf qütbü yarada bilmək üçün təşviqedici tədbirlər həyata keçirilmiş, infrastruktur yönümlü investisiya qoyuluşları tamamlanmış, nəticə etibarilə, Mezzogiorno bölgəsinin sahibkarlar üçün əlverişli quruluş yeri olaraq cazibədar hala gətirilməsi istiqamətində işlər aparılmışdır.

“Cassa per il Mezzogiorno” qurumunun fəaliyyət dövrlərini nəzərdən keçirərkən tərəfimizdən aparılan araşdırmanın məntiqi əsası olaraq belə bir nəticəyə gəlinmişdir ki, İtaliyada həyata keçirilən regional siyasət çərçivəsində hər dəfə yeni bir mərhələyə keçid heç bir halda əvvəlki mərhələdə qarşıya qoyulmuş vəzifələrin əldə edilməməsi ilə bağlı deyildir. Regional siyasətin birinci mərhələsinin xidməti hələ 1950-ci illərdə İtaliyanın cənubunda bir sıra infrastruktur layihələrinin həyata keçirilməsi idi. Buna baxmayaraq regional siyasətin birinci mərhələsinin ümumi qiymətləndirilməsi çox mənfidir. Çünki İtaliyanın cənubunu inkişaf etmiş bir sənaye bölgəsinə çevirmək cəhdləri uğursuz olmuşdu. Bu uğursuzluğun başlıca səbəbi investisiya qoyulacaq istiqamətlərin və ya sahələrin səhvən seçilməsi, ayrılan vəsaitlərin istifadəsinə nəzarət mexanizmlərinin olmaması idi. Qeyd olunan uğursuzluğun digər bir səbəbi isə regional layihələrin hazırlanmasında bölgə əhalisinin iştirakının təmin edilməməsi və ya iştirakına laqeyd yanaşılmasıdır. Bu da regional layihələrin təcrid olunmasına səbəb olmuşdur. Nəticədə İtaliyanın mərkəzi və şimal bölgələri ilə

müqayisədə cənub regionunun sosial-iqtisadi geriliyini aradan qaldırmaq mümkün olmamışdıtr.

Sonrakı dövrlərdə qeyd etdiyimiz bu uğursuzluqlardan dərs alınaraq 1980-ci ildə fəaliyyəti başa çatan Mezzogiornonun yerinə 1986-cı ildə regional layihə və proqramlarda yerli sahibkarların iştirakını nəzərdə tutan qurum – Agenziya yaradılmışdır. Məhz bu baxımdan qeyd edə bilərik ki, İtaliyanın müasir regional siyasəti 1990-cı illərdə təşəkkül tapmışdır. Nəticə etibarilə, İtaliyanın bugünkü regional siyasəti ölkənin şimalındakı inkişaf etmiş bölgələrə zərər vermədən cənub bölgələrinin iqtisadi zəiflik probleminin həll edilməsinə yönəldilmişdir. İtaliyanın regional siyasətinin qeyd etdiyimiz şəkildə formalaşdırılması səbəbi, dünya təcrübəsində də görüldüyü kimi, regionlararası inkişaf səviyyəsindəki fərqliliyi aradan qaldırmaq baxımından zəruri resursların inkişafdan geri qalmış regionların bəzi mərkəzlərinə (süni inkişaf qütbünə) yönəldilməsi fikrinin digər regionların iqtisadi inkişaf sürətinə təsir etdiyindən bəzən müqavimətlə qarşılaşmasıdır. Bu faktın vaxtında nəzərə alınmaması halında şimal və cənubun inkişafındakı kəskin ziddiyyətlər İtaliyanın rəqabət qabiliyyətinin artmasına mane olacaqdı.

Bu gün İtaliyada həyata keçirilən regional siyasət dünyada gedən qloballaşma prosesi və post-fordist istehsal tərzi kiçik müəssisələrin böyük müəssisələrlə rəqabət apara bilmə qabiliyyətini artırmış, kiçik şəhərlərin böyük şəhərlər qarşısındakı dezavantajlarını üstünlüyə çevirmişdir. Bu yeni siyasət nəticəsində sənayesi olmayan nisbətən daha az inkişaf etmiş regionlardakı şəhərlərdə sənayeləşmə hərəkatı meydana gəlmişdir [5, 400].

İtaliyanın regional tarazlığın təmin edilməsi istiqamətində həyata keçirdiyi müasir regional siyasət təcrübəsini nəzərdən keçirdikdə, hazırlanan və reallaşdırılan regional siyasətin və bu siyasətə nəzarətin mürəkkəb təşkilati-idarəetmə struktura malik olduğunu görürük. Belə ki, İtaliyada regional problemlərin həlli üzrə ayrıca bir nazirlik olmadığından ölkədə regional siyasətin hazırlanması və həyata keçirilməsi üçün mürəkkəb təşkilati sistem meydana gəlmişdir. Başqa sözlə desək, bir neçə hakimiyyət orqanı regional proqramların hazırlanması və tətbiq edilməsi ilə bağlı səlahiyyətləri bölüşür.

1. İtaliyada İqtisadi İnkişaf Nazirliyinin tərkibində İnkişaf və iqtisadi birlik Departamenti mövcuddur. Bu departament regional siyasəti hazırlayır, həyata keçirir, koordinasiya edir və regional siyasətə nəzarət edir. 1998-ci ildə bu departamenti yaradarkən məqsəd regionların tarazlaşdırılmış sosial-iqtisadi inkişafına nail olmaq və ölkənin zəif inkişaf etmiş rayonlarının iqtisadi inkişafını təmin etmək və s. olmuşdur.

Departament İtaliyada Milli Çərçivə Proqramı daxilində tədbirlərin həyata keçirilməsini əlaqələndirir, az inkişaf etmiş ərazilər üçün nəzərdə tutulmuş fondun vəsaitləri hesabına maliyyələşdirilən dövlət investisiyaları və təşəbbüslərinin hazırlanmasına və həyata keçirilməsinə kömək edir, hökumətin proqram sənədlərinin işlənib hazırlanmasına imkan yaratmaqla regionların iqtisadi inkişafının maliyyə axınlarını və meyillərini təhlil edir.

Departamentin tərkibinə bir neçə idarə daxildir:

- Milli səviyyədə Vahid Regional Siyasət Baş İdarəsi;
- Ümumavropa səviyyəsində Vahid Regional Siyasət Baş İdarəsi.

İtaliyada regionlararası sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqlilikləri aradan qaldırmaq və maksimum səviyyədə regionlar arasında tarazlığı təmin etmək üçün İtaliyanın Baş naziri yanında Nazirlər Şurası Rəyasət Heyəti adlanan köməkçi bir qurum formalaşdırılmışdır ki, Rəyasət Heyətinin tərkibinə aşağıda qeyd olunan departamentlər daxildir:

- İqtisadi Planlaşdırma üzrə idarələrarası komitə. Bu komitə hökumət başçısının rəhbərliyi altındakı nazirliklərin rəhbərlərindən ibarət kollegial bir orqandır. 2001-ci ildən bu komitəyə regionların və muxtar vilayətlərin başçıları da daxil edilmişdir;
- Region, turizm və idman işləri üzrə departament. Departament dövlətlə regionlar arasındakı qarşılıqlı fəaliyyəti əlaqələndirir;
- Yerli iqtisadiyyatın və şəhərlərin inkişafı üzrə departament. Bu departament yerli hakimiyyət orqanları ilə əməkdaşlıq etməklə onlara iqtisadi inkişafa və böhranın aradan qaldırılmasına istiqamətləndirilmiş infrastruktur və istehsalın inkişafı üzrə proqramlar təklif edir. Departament infor-

masiya bazaları və veb-saytlar vasitəsilə yerli hakimiyyət orqanlarını və yerli şirkətləri məlumatlarla təmin edir, yerli səviyyədə kiçik və orta müəssisələrin fəaliyyətini təhlil edir və onlara nəzarəti həyata keçirir;

- Dövlət, regionlar, Trento və Bolzanonun muxtar vilayətləri arasında əlaqələrin həyata keçirilməsi üçün Katiblik;
- Dövlətlə şəhər və yerli muxtariyyətlər arasında əlaqələrin həyata keçirilməsi üçün Katiblik.

**Regional inkişaf proqramlarında vətəndaşların iştirakı: Fransa təcrübəsi**

“Dövlət tərəfindən həyata keçirilən regional inkişaf proqramlarına xalqın necə və hansı mərhələdə qoşulması” sualı əsasdır. Burada geniş mənada qoşulma anlayışı təyinatı ilə vəzifəyə gətirilən dövlət məmurları ilə birlikdə regionda yaşayan əhalinin birbaşa və ya məsləhətçi formasında regional inkişaf fəaliyyətlərinə qoşulmasını əks etdirir. Təcrübə göstərir ki, region əhalisi səlahiyyətli şəxslərin seçimində söz sahibi olmaqla regional inkişaf siyasətinin hazırlanması və reallaşdırılması prosesində dolayısı ilə də iştirak edə bilər.

Fransanın “xalqın qoşulması” prinsipindən istifadə edərək həyata keçirdiyi regional siyasət məhz bu baxımdan olduqca maraqlıdır. Fransada 1963-cü ildən etibarən ölkə ərazisi regional hissələrə ayrılmış, müxtəlif komitə və komissiyalar vasitəsilə xalqın regional inkişafla bağlı qərar qəbulu prosesinə qoşulması təmin edilmişdir. 1982-ci ildə Fransa hökuməti tərəfindən regional məclislər formalaşdırılmış və bu məclis üzvlərinin region əhalisi tərəfindən seçilməsinə qərar verilmişdir. Beləliklə, Fransa hökuməti qəbul etdiyi bu qanunla əhalinin yaşadıqları region ilə əlaqədar bütün qəbul olunmuş qərarlarda birbaşa iştirakını təmin etmişdir. Regionda həyata keçiriləcək hər bir layihə üçün regional məclisin təmsilçiləri ilə dövlət təmsilçiləri arasında müqavilə imzalanır. Bu müqavilə ilə tərəflər üzərlərinə qarşılıqlı olaraq öhdəliklər götürürlər. Bu yolla dövlət regionda həyata keçirilən layihələrdə region əhalisinin fəal iştirakını təmin edir və onların vasitəsi ilə regionda həyata keçirilən layihələrə nəzarət etmiş olur [7, 28].

Fransada regional tarazlığın təmini və regionların inkişafı məqsədilə həyata keçirilən regional siyasət təcrübəsini öyrənən zaman qəti olaraq belə bir nəticəyə gəlirik ki, region əhalisinin iştirakı olmadan mərkəzi dövlət orqanları tərəfindən aparılan çalışmalarla regional inkişaf plan və proqramlarını səmərəli və təsirli şəkildə həyata keçirmək çox çətindir, başqa sözlə desək, effektsizdir. Fikrimizcə, məhz bu baxımdan Naxçıvan Muxtar Respublikasında regionlararası sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqlərin aradan qaldırılması və regional tarazlı inkişafın təmin edilməsi üçün muxtar respublikanın inzibati rayonlarının mövcud potensialı sahibkarlara tanıdılmalı, investorlar bu potensialın istehsal dövriyyəsinə cəlb olunmasına yönəldilməli, o cümlədən regionlarda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin inkişafı sürətləndirilməli, qeyd olunan məqsədlərin reallaşdırılmasına xidmət edən regional inkişaf agentlikləri yaradılmalıdır.

**Almaniyanın regional siyasət təcrübəsi**

Almaniyanın regional siyasət təcrübəsi Azərbaycan Respublikası, o cümlədən Naxçıvan Muxtar Respublikası üçün olduqca maraqlıdır. Regional siyasətin Alman modelinin bizə yaxınlığı (və ya uyğunluğu) hər iki ölkənin idarəetmə sisteminin yüksək mərkəzləşmə dərəcəsi, ölkənin və regionların sosial-iqtisadi inkişafında dövlət hakimiyyət orqanlarının əhəmiyyətli rol oynaması ilə bağlıdır. Eyni zamanda, regional siyasətin Alman modelinin bizim üçün uyğun olmasının digər bir səbəbi respublikamızda bazar iqtisadiyyatına keçid zamanı sosial yönümlü bazar iqtisadi modeli (Alman modeli) təcrübəsindən istifadə edilməsidir. Həmçinin hər iki ölkənin mərkəzlə regionlar arasındakı iqtisadi əlaqələrin təşkilində çoxlu ümumi cəhətləri olduğunu asanlıqla görmək olar.

Almaniyanın regional siyasətinin əsas özünəxas xüsusiyyətlərindən biri Alman qanunvericiliyində bütün ölkə ərazisində ekvivalent yaşayış şəraitinin yaradılması zəruriliyinin bəyan edilməsidir. Belə ki, ölkənin əsas qanununun 72-ci maddəsində qeyd olunur ki, Alman hökuməti bütün ölkə ərazisində ekvivalent həyat şəraiti yaratmaq səlahiyyətlərini həyata keçirir. Bundan əlavə, Alman qanunvericiliyində ölkənin maliyyə sistemi ilə bağlı 106-cı maddədə deyilir ki, “ölkənin regionlarının büdcə vəsaitlərinə ehtiyacı ədalətli tarazlığa nail olmaq və vergi ödəyicilərinin həddindən artıq yüklənməməsi əsasında müəyyən edilməlidir”. Beləliklə, Almaniyanın regional

siyasət təcrübəsinə nəzər yetirərək qeyd edə bilərik ki, tarazlaşdırılmış həyat şəraitinin təmin edilməsi büdcələrarası münasibətlərin başlıca məqsədidir.

Almaniyanın regional inkişaf siyasətinin tərkibini üç komponentə ayırmaq olar:

1. Büdcələrarası münasibətlər;
2. Regional siyasət;
3. Regional planlaşdırma.

Bu üç komponent Almaniyada fərqli nazirliklərin hüquqi tabeçiliyindədir.

Almaniyanın tarazlaşdırılmış regional inkişaf siyasətinin uğurlu beynəlxalq təcrübəsi V.B.Belovanın kitabında ətraflı əks olunur [8].

Almaniyanın tarazlaşdırılmış regional inkişaf siyasətini nəzərdən keçirərkən ölkədəki regionlararası sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqlərin kəskin artma səbəbinin Almaniyanın birləşməsi olduğunu görürük. Belə ki, Almaniyanın birləşməsi nəticəsində Qərb regionlarında 1991-ci ildə adambaşına düşən ÜDM göstəricisi arasında (Hamburq və Şlezviq-Qolşteyna) 2 dəfədən az, bütün ölkə üzrə isə təxminən (Hamburq və Turingiya) 6 dəfə fərq var idi. 2013-cü ildə isə Hamburq və Turingiyada adambaşına düşən ÜDM-in maksimum və minimum dəyərləri arasındakı təzad azalaraq 2,3 dəfə olmuşdur [9].

Almaniyanın regionları arasındakı fərqliliyin digər ciddi səbəblərindən biri işsizlik problemidir. Belə ki, 2013-2014-cü illərdə bütövlükdə Almaniya üzrə işsizlik göstəricisinin maksimum və minimum dəyərləri arasındakı fərq 3,1-3,2 dəfə, qərb torpaqlarında 2,9 dəfə, şərq torpaqlarında isə 1,5 dəfə (bütövlükdə ölkədə və şərq regionlarında ən yüksək işsizlik səviyyəsi Meklenburq-Qərbi Pomeraniyada, qərb regionlarında – Bremen, bütövlükdə ölkədə və qərb regionlarında ən aşağı işsizlik səviyyəsi – Bavariyada, şərq regionlarında – Turingiyada) olmuşdur. Məhz bu baxımdan Almaniya regional inkişaf siyasətində əmək bazarının vəziyyətinin tənzimlənməsi və balanslaşdırılmasına mühüm diqqət ayrılır.

Almaniyanın regional inkişaf siyasətini araşdırdıqda görürük ki, regionlararası sosial-iqtisadi inkişaf səviyyəsindəki fərqliliklərin aradan qaldırılması və regional tarazlığın təmin edilməsi məqsədilə Almaniya Federal Maliyyə Nazirliyi regionların büdcə gəlirlərinin bərabərləşdirilməsi və ya tarazlaşdırılması istiqamətində aşağıdakı dörd mərhələdən ibarət tədbirlər həyata keçirir:

1. Vergilərin şaquli bölgüsü – vergi daxilolmalarının (gəlirlərinin) federal, region və yerli (və ya bələdiyyə) büdcələr arasında bölüşdürülməsi;
2. Vergilərin üfüqi bölgüsü – bir sıra vergilərin ayrı-ayrı regionların büdcələrinə köçürülməsi üçün müəyyən qaydaların təmin edilməsini nəzərdə tutur;
3. Regionların büdcə gəlirlərinin tarazlaşdırılması – gəlirlərin “yoxsul” və “zəngin” regionlar arasında üfüqi şəkildə yenidən bölüşdürülməsi;
4. Federal (mərkəzi) büdcədən “yoxsul” regionlara əlavə qrantların (ayırmaların) ayrılması [10].

Regional tarazlı inkişaf siyasətinin Almaniya təcrübəsində sosial-iqtisadi inkişaf səviyyəsinə görə bir-birindən fərqlənən müxtəlif səviyyəli regional büdcələrin bərabərləşdirilməsi və ya tarazlaşdırılması üçün üç vergi növündən – mənfəət vergisi, əlavə dəyər vergisi və gəlir vergisindən istifadə olunur. Mənfəət vergisi və gəlir vergisindən əldə olunan gəlirlər federal (mərkəzi) və region büdcələri arasında bərabər bölünür və bu qayda Almaniyanın qanunvericiliyində təsbit olunmuşdur. Belə ki, gəlir vergisindən əldə olunan gəlirlərdə federal və region büdcələrinin hər birinin payı 42,5% təşkil edir, bu vergidən daxil olan vəsaitin 15%-i yerli ( və ya bələdiyyə) büdcələrə köçürülür. Mənfəət vergisindən əldə edilən gəlirlərdə mərkəzi (federal) və region büdcələrinin hər birinin payı 50% təşkil edir. Müxtəlif səviyyəli büdcələr arasında ƏDV-dən əldə edilən gəlirlərin bölüşdürülməsi proporsiyası bərabər hüquqlu əsasda federasiya və regionların xərclərini ödəmək üçün müəyyən edilir və bu proporsiya, başqa sözlə desək, pay bölgüsü ildən-ilə dəyişə bilər. 2014-cü ildə ƏDV-dən daxilolmaların təqribən 53%-i federal büdcəyə, təxminən 45%-i region büdcələrinə, təxminən 2%-i isə yerli (və ya bələdiyyə) büdcələrə daxil edilmişdir. Beləliklə, aparılan araşdırmaya əsasən söyləyə bilərik ki, regionların büdcə vəsaitlərinin, başqa sözlə desək, maliyyə

resurslarının bərabərləşdirilməsinin birinci mərhələsində regionların bütövlükdə vergi daxilolmalarındakı payı müəyyən edilmişdir.

İkinci mərhələdə - vergi daxilolmalarının üfüqi bölgüsü mərhələsində ayrı-ayrı regionlar üzrə vergi gəlirlərinin bölüşdürülməsi qaydaları müəyyən edilir. Burada ümumi qayda ondan ibarətdir ki, vergilər bu vergilərin tutulduğu regionun büdcəsinə hesablanır. İstisnalar əlavə dəyər vergisi, mənfəət vergisi və gəlir vergisi ilə bağlıdır. Gəlir vergisinə gəldikdə, onun vətəndaşların yaşayış yeri üzrə region büdcəsinə köçürülməsi prinsipi tətbiq edilir. Mənfəət vergisi müəssisə və şirkətlərin baş qərargahının yerləşdiyi yerdə tutulur və sonra onların faktiki fəaliyyət göstərdiyi regionlara paylanır.

ƏDV-nin bölüşdürülməsi qaydası daha mürəkkəbdir. Belə ki, adambaşına düşən gəlir vergisi, mənfəət vergisi və torpaq vergisi daxilolmalarının məbləğinin ölkə üzrə orta göstəricidən aşağı olduğu regionlara ƏDV-nin 25%-ə qədəri pay olaraq düşür. Maddi cəhətdən, başqa sözlə desək, maliyyə imkanları zəif olan regionlara ƏDV-dən ayrılan payın dəqiq məbləği belə regionların ölkə üzrə orta göstəricidən nə dərəcədə geri qalmasından asılıdır. ƏDV-nin yerdə qalan 75%-i isə hər bir regionun əhali sayına proporsional olaraq bölünür.

**Müzakirə**

Bəllidir ki, dünya dövlətləri tərəfindən hər hansı iqtisadi sistemin qəbul və tətbiq edilməsindən asılı olmayaraq sağlam şəkildə həll edilməsi lazım olan üç əsas problem mövcuddur:

1) iqtisadiyyatdakı bütün məhdud resursların istehsala cəlb olunması (tam istifadə problemi);

2) məhdud resursların cəmiyyətdəki insanların ehtiyaclarını ödəyəcək məhsul və xidmətlər istehsalına yönəldilməsi (səmərəli istifadə problemi);

3) mövcud məhdud resurslarla mal və xidmət istehsalının həcminin artırılması (iqtisadi artım və inkişaf problemi).

Təcrübə göstərir ki, sahibkarlar həm qısa müddətdə məhsuldar olan, yüksək gəlir əldə edə biləcəyi sahələrə meyil edir, həm də öz işini təsərrüfat fəaliyyəti ilə məşğul olmağa əlverişli şəraiti olan bölgələrdə cəmləşdirir. Dolayısı ilə sahibkarların həm uzun müddətdə məhsuldar olan infrastruktur sahələrinə sərmayə qoymamasını, həm də inkişafdan geri qalmış regionlara investisiya yönəltməməsini normal qarşılamaq lazımdır. Bu halda “zəif inkişaf etmiş regionların həyati ehtiyaclarını qarşılayacaq, iqtisadi inkişafın başlaması və davamını təmin edəcək investisiya qoyuluşlarını kim həyata keçirməlidir?” sualı ortaya çıxır. Fikrimizcə, regionlararası sosial-iqtisadi inkişaf fərqliliklərini azaltmaq məqsədi ilə inkişafdan geri qalmış inzibati və ya iqtisadi vahidlərdə canlanmanı təmin edəcək, uzun müddətdən sonra gəlir əldə etməyə imkan verəcək, “sosial fayda”sı yüksək olan sərmayə qoyuluşlarının birbaşa dövlət və ya onunla bağlı müəssisələr tərəfindən həyata keçirilməsi yuxarıda qeyd etdiyimiz problemi aradan qaldırar.

Məhz bu baxımdan demək olar ki, regional inkişaf siyasətinin ilk prinsipi – zəif inkişaf etmiş regionlarda sosial faydası yüksək və iqtisadi cəhətdən uzun zaman kəsiyində faydalı olan investisiya layihələrinin dövlət tərəfindən reallaşdırılmasıdır. Çünki cari dövrdə modern dövlət məfhumu cəmiyyətin maddi rifahını yüksəltməyə və sosial faydanı daima ön plana çəkməyə xidmət edən anlayışı əks etdirir. Bu halda dövlət inkişafdan geri qalmış regionlarda həm infrastruktur layihələrini həyata keçirməli, həm də regionlara canlılıq gətirəcək investisiya qoyuluşları yönəltməlidir. Dövlətin iqtisadi cəhətdən zəif regionlara bu prinsip çərçivəsində müdaxiləsi olmadan regional inkişaf siyasətindən söz açmaq mümkün deyildir. Qeyd edək ki, dövlətin geri qalmış regionlarda iqtisadi canlanmaya nail olması üçün həmin ərazi vahidlərinə sahibkarları cəlb etməsi, iş adamlarına bir sıra maliyyə və vergi təşviq tədbirlərini tətbiq etməsi yetərli deyildir. Bu zaman dövlət təşviq tədbirləri ilə yanaşı, regionun infrastruktur layihələrini reallaşdırıb bitirməli və regiona canlılıq gətirəcək fəaliyyətləri həyata keçirməlidir.

***Nəticə***

Regional inkişaf siyasətinin uğuru region əhalisinin həyata keçirilən siyasətdə söz sahibi olması, regionun sosial-iqtisadi həyatına təsir edəcək qərarların qəbulu prosesində birbaşa vətəndaş-

ların iştirakı ilə bağlıdır. Yerli əhalinin regional fəaliyyətlərə qoşulması iqtisadi islahatların reallaşdırılması prosesində atılan ən demokratik addımdır. Qeyd edək ki, regional inkişaf siyasətində insanların rolu böyükdür. Belə ki, region əhalisi bu inkişaf proqramlarına qoşulmadıqca, bu proqramlar xalqdan, daha doğrusu, region əhalisindən qopmuş bir rəhbərliyin əsəri olacaq və proqramın uğuru təsadüfi xarakter daşıyacaqdır. Region əhalisinin regional inkişaf proqramlarının reallaşdırılması prosesinə qoşulması cəmiyyətin əhval-ruhiyyəsini yüksəltməklə yanaşı, inkişaf proqramlarına hərəkətlilik gətirəcək və regionda inkişaf proqramı çərçivəsində həyata keçirilən istənilən fəaliyyətə o regionda yaşayan insanlar tərəfindən ciddi nəzarət edilməsinə imkan verəcəkdir.

Hal-hazırda ölkəmiz üçün iqtisadi, sosial və təbii resurs komponentlərini nəzərə almaqla iqtisadi islahatlar şəraitində regional tarazlılığı təmin edən prinsip və qanunların müəyyənləşdirilməsi, habelə bu prinsip və qanunların yerli səviyyədə həyata keçirilməsi üçün metodoloji yanaşmaların hazırlanması məqsədəmüvafiqdir.

## ƏDƏBİYYAT


1. İlham Əliyev. Regionların sosial-iqtisadi inkişafi Dövlət Proqramının 2-ci ilinə həsr olunmuş konfransda çıxışı, Bakı, 18 fevral 2006.
2. İlham Əliyev. Azərbaycan Respublikası prezidentinin Naxçıvan Muxtar Respublikasındakı çıxışı. Naxçıvan, 17 mart 2007.
3. Eraydın A. Bölgesel Gelişme. Ankara, 1982.
4. Региональная политика: зарубежный опыт и российские реалии. Под ред. А.В. Кузнецова, О.В. Кузнецовой. М., ИМЭМО РАН, 2015, 137 с.
5. Altuğ F. Kent ekonomisinin ilkeleri. Bursa, 1989.
6. Слинько Е.А., Власова И.Э. Равновесие региональный политической системы на основе принципа разделения властей. Регион: системы, экономика, управление. № 4(43), 2018, с. 134-138.
7. Черников Г. П.Экономика Франции: Традиции и новейшие тенденции. Учебники МГИМО, 2002
8. Германия: Вызовы XXI века. Под. ред. В.Б. Белова. М., Издательство "Весь мир", 2009, -320- с.
9. Statistisches Jahrbuch 1995 für die Bundesrepublik Dentschland, Statistisches Jahrbuch 2014 für die.
10. Борис Зарицкий: Экономика ФРГ. М: Магистр, 2009 г.
11. Zeynel Dinler. Bölgesel iktisat. Bursa, 2012, 449 s.
12. Германия: Вызовы XXI века. Под. ред. В.Б. Белова. М., Издательство "Весь мир", 2009.



***Рифат Вагиф оглы Гасанов***
***Докторант Нахчыванского Университета***


**Изучение зарубежного опыта в направлении обеспечения регионального баланса**


***Резюме***

**Цель исследования** - изучить зарубежный опыт в направлении обеспечения регионального баланса в условиях новых экономических и быстрых изменений, а также подготовить научно обоснованные предложения в направлении совершенствования обеспечения регионального сбалансированного развития с учетом передовых зарубежных опыт.

**Методология исследования.** В исследовательской работе использовались такие экономические методы, как анализ, синтез и обобщение.

**Прикладное значение исследования.** Прикладная значимость исследования заключается в том, что его результаты находят отражение в предложениях и рекомендациях, конкретно выдвигаемых в области формирования системы обеспечения региональной

сбалансированности, которые могут способствовать повышению эффективности обеспечения сбалансированного развития регионов.

**Результаты исследования.** Результаты работы могут быть использованы при подготовке специалистов в области управления региональной экономикой и обеспечения регионального сбалансированного развития в высших учебных заведениях, а также при подготовке стратегии устойчивого социально-экономического развития региона. органы местного самоуправления Азербайджанской Республики.

**Оригинальность и научная новизна исследований.** На основе анализа зарубежного опыта проанализированы и сгруппированы формы, методы и инструменты обеспечения регионального баланса, определены основные принципы формирования регионального экономического пространства, исследованы уникальные технологии планирования регионального развития, определены возможные методы, отражающие влияние региональных органов управления на ход экономического развития.

***Ключевые слова: сбалансированное развитие регионов, межрегиональное развитие, региональные промышленные комплексы, финансовое обеспечение регионального развития.***

***Rifat Vagif Hasanov***
***Doctoral student of Nakhchivan University***

**Studying foreign experience in the direction of ensuring regional balance**

***Summary***

**The purpose of the research** is to study foreign experience in the direction of ensuring regional balance in the conditions of new economic and rapid changes, and to prepare scientifically based proposals in the direction of improving the provision of regional balanced development, taking into account advanced foreign experience.

**Research methodology.** Economic methods such as analysis, synthesis and generalization were used in the research work.

**Applied significance of the study.** The applied importance of the research is that its results are reflected in the proposals and recommendations specifically put forward in the field of regional balance provision system formation, which can help increase the efficiency of regional balanced development provision.

**Results of the study.** The results of the work can be used during the training of specialists in the field of managing the regional economy and ensuring regional balanced development in higher educational institutions, as well as during the preparation of the sustainable socio-economic development strategy of the region by the local self-government bodies of the Republic of Azerbaijan.

**Originality and scientific innovation of research**. On the basis of the analysis of foreign experience, the forms and methods and tools of ensuring regional balance were analyzed and grouped, the main principles of the formation of the regional economic space were determined, the unique technologies of regional development planning were investigated, and possible methods reflecting the influence of regional governing bodies on the course of economic development were determined.

***Key words: Regional balanced development, interregional development, regional industrial complexes, financial support of regional development.***